# Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə medallar təqdim edilmişdir





Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə Vətən müharibəsində göstərdikləri igidliyə görə təltif edilmiş Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə medalların təqdim olunması ilə bağlı Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsində tədbir keçirilmişdir. Tədbirdə Vətən müharibəsi zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş rayonumuzdan olan şəhidlərin ailə üzvlərinə medallar təqdim olunmuşdur. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən danışmış, 44 günlük savaşda qazandığımız tarixi nailiyyətlərə görə Ali Baş Komandana, onun rəhbərliyi altında bizləri Qələbə ilə sevindirən Azərbaycan Ordusunun əsgər və zabitlərinə, hərbçilərimizə, Vətən uğrunda sağlamlığını itirən qeyrətli, cəsur qazilərimizə, canından keçən şəhidlərimizə bir ömür boyu borclu olduğumuzu qeyd etmiş, şəhidlərə Allahdan rəhmət, onların valideynlərinə səbr, qazilərə can sağlığı arzulamışdır. Tədbirdə iştirak edən şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Yaponiyanın Azərbaycandakı səfiri Qəbələ rayonuna səfər etmişdir

23 fevral 2022-ci il tarixində Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vada Cuniçi Qəbələyə səfər etmişdir. Səfir Vada Cuniçi və onun başçılıq etdiyi nümayəndə heyətinin rayon icra hakimiyyətinin başçısı Səbuhi Abudllayevlə görüşü zamanı Yaponiya və Azərbaycan arasında son illər iqtisadi əlaqələrin daha da genişlənməsindən bəhs edilmişdir. İcra başçısı Qəbələ rayonu, rayonun sosial-iqtisadi göstəriciləri haqqında geniş məlumat vermiş və təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, bu gün isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi inkişafın bariz nümunəsinin Qəbələ rayonunun timsalında daha aydın göründüyünü, rayonda yaradılan yeni istehsal müəssisələrinin, sənaye və turizm obyektlərinin Qəbələnin iqtisadi inkişaf dinamikasının artmasında müstəsna rol oynadığını qeyd etmiş və hələ 2006-cı ildə Yaponiyanın Azərbaycandakı səfirliyinin xətti ilə 280 yerlik Uludaş kəndində, 2007-ci ildə 240 yerlik Kötüklü kəndində tam orta məktəbin tikilib istifadəyə verilməsi ilə iki ölkə arasında olan əlaqələrin daha da möhkəmləndiyini nümayəndə heyətinin diqqətinə çatdırmışdır. Yaponiya və Azərbaycan arasında diplomatik əlaqələrin yaranmasının 30-cu ildönümü münasibətilə 2022-ci ilin "Dostluq ili" adlandırıldığını vurğulayan səfir Qəbələ rayonunda aparılan abadlıq-quruculuq işlərini yüksək qiymətləndirmiş, sosial-iqtisadi sahənin inkişafı istiqamətində rayona uğurlar arzulamışdır.



Səfər çərçivəsində səfir Vada Cuniçi və onun başçılıq etdiyi nümayəndə heyəti Qəbələ "Gilan Qida Şəhərciyi"ni, "ASPİ Agro" MMC-nin "Savalan" üzüm emalı və şərab istehsalı müəssisəsini, Qəbələ Farel damazlıq təsərrüfatını, Çuxur Qəbələ Dövlət Tarix Bədii qoruğunu, Nic qəsəbəsində yerləşən "Müqəddəs Məryəm Ana" (Bulun) alban kilsəsini ziyarət etmiş, turizm infrastrukturu ilə tanış olmuşdur.

# YAP Qəbələ Rayon Təşkilatının sədri ictimaiyyət nümayəndələrinə təqdim edilmişdir

Fevral ayının əvvəlində Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatında keçirilən videokonfransda ərazi partiya təşkilatlarının sədrləri və partiya fəalları iştirak etmişlər. Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatının məsul işçisi Araz Salmanov Azərbaycanın ötən dövr ərzində möhtəşəm nailiyyətlərə imza atdığını, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini qeyd etmiş və YAP Qəbələ Rayon Təşkilatının sədri Ağasəfov Abil Adil oğlunu yenidən təşkilat sədri kimi partiya üzvlərinə təqdim etmişdir.

10 fevral 2022-ci il tarixində Qəbələ Mədəniyyət Mərkəzində Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının yeni təyin edilmiş sədrinin təqdimatı keçirilib. Təqdimat mərasimində rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri və partiya fəalları iştirak etmişlər. Tədbir iştirakçıları öncə Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzmüş, Ümummilli Liderin xatirəsini böyük ehtiramla yad etmişlər. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Yeni Azərbaycan Partiyasının bu gün ölkəmizdə ən güclü və nüfuzlu siyasi qüvvəyə çevrildiyini, öz ətrafında cəmiyyətin ən intellektual təbəqələrini birləşdirdiyini qeyd etmişdir. RİH-nin başçısı partiyanın yeni Nizamnaməsinin tələblərinə uyğun olaraq YAP İdarə Heyətinin 28 yanvar 2022-ci il tarixli qərarına əsasən, partiyanın yerli təşkilatlarına sədrlər təyin olunduğunu bildirərək YAP Qəbələ Rayon Təşkilatının sədri Ağasəfov Abil Adil oğlunu ictimaiyyətə təqdim etmişdir. Tədbirdə çıxış edən partiya fəalları YAP Qəbələ Rayon Təşkilatının yaranma tarixindən danışmış, təşkilatın sədri təyin olunması münasibətilə Abil Ağasəfovu təbrik etmişlər. YAP Qəbələ Rayon Təşkilatına sədr təyin olunmuş Abil Ağasəfov göstərilən etimada görə ölkə başçısına və YAP rəhbərliyinə təşəkkürünü bildirərək, bundan sonra da Azərbaycan xalqına, dövlətinə və dövlətçiliyinə sədaqətlə xidmət edəcəyini qeyd etmişdir. Yekunda səmərəli fəaliyyətinə görə RİH başçısı Abil Ağasəfova rayon icra hakimiyyətinin Fəxri Fərmanını təqdim etmiş və bundan sonrakı fəaliyyətində ona uğurlar arzulamışdır.

# Aysberqin zirvəsi



***Abil Ağasəfov: "Rusiya qarşılıqlı addımlar atmaqla Azərbaycanla müttəfiqlik münasibətlərində maraqlı olduğunu sübuta yetirdi"***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin tərəfindən Moskvada imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında" Bəyannamənin bütün müddəaları Azərbaycanın milli maraqlarına tam uyğundur. Hətta bu sənədi Rusiyanın Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və təhlükəsizliyinə növbəti dəstəyi kimi də qiymətləndirmək olar.

Moskva Bəyannaməsinin əsas fəlsəfəsi ölkələrin qarşılıqlı olaraq müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına hörmət nümayiş etdirərək münasibətlərin güclə hədələməmək prinsipləri üzərində qurulmasına dair öhdəlikdir.

Rusiya-Azərbaycan diplomatik əlaqələri 30 ildir mövcuddur. Ancaq 90-cı illərin əvvəllərində ölkədə baş verən digər neqativ hallar kimi bu münasibətlər də kölgədə qalmış, tədricən öz mahiyyətini itirməyə başlamışdı. Ümumilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsilə Rusiya-Azərbaycan diplomatik münasibətlərindəki çatışmazlıqlar qısa müddətdə aradan qaldırıldı.

Azərbaycan-Rusiya münasibətlərinin hüquqi bazası 1997-ci il "dostluq, tərəfdaşlıq və əməkdaşlıq" haqda saziş və 2008-ci ildə bağlanmış "dostluq və strateji əməkdaşlıq" haqda müqavilə ilə yaradılmışdır. Ötən 14 il ərzində bu münasibətlər strateji tərəfdaşlıqdan strateji müttəfiqlik səviyyəsinə qədər uğurlu inkişaf yolu keçmişdir. Bu onu deməyə əsas verir ki, bu münasibətlərin təməli olduqca möhkəmdir və onun üzərində yeni bir konfiqurasiyanın qurulma vaxtı gəlmişdir. Bu yeni konfiqurasiyanın əsas oyunçuları Azərbaycan, Türkiyə və Rusiyadır. Son illərdə Azərbaycan-Rusiya münasibətləri kifayət qədər böyük dinamiklə, hər iki tərəfin maraqlarına, milli prioritetlərinə uyğun olaraq inkişaf edib. Bu bəyannamə Azərbaycan tarixində diplomatik bir hadisə, regional təhlükəsizlik baxımından çox mühüm bir sənəddir. 45 bölmədən ibarət olan sənəd bir çox sahələri, xüsusən siyasi, ticari-iqtisadi və humanitar sahələri əhatə edir.

Bu gün Azərbaycan Prezidenti müstəqil və balanslı siyasət yeridir. Bunun nəticəsidir ki, tərəfdaş ölkələr İlham Əliyev diplomatiyasını çox ciddi şəkildə qəbul edir. Tarixdən məlumdur ki, cənubi Qafqazda təhlükəsizlik sisteminin qurulması üçün cəhdlər göstərilib, ancaq buna nail olunmayıb. Son onilliklərdə Azərbaycanda baş vermiş inkişaf və tərəqqi, 44 günlük Zəfər qələbəsi, ölkəmizin beynəlxalq tədbirlərə ev sahibliyi etməsi bu missiyanın həyata keçirilməsi üçün tarixi zəruri şərait yaradıb. Bu diplomatiya məhz ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilir. Bu münasibətlər bir daha sübut edir ki, Azərbaycan tək bölgə üçün deyil, bütün dünya üçün əhəmiyyətli və əlverişli bir ölkədir. Artıq Azərbaycan cənubi Qafqazda təhlükəsizlik tərəfdaşı kimi özünü təsdiq etmişdir. İndi o, regionun geoiqtisadi və geosiyasi mənada lokomotivi rolunda çıxış etməkdədir. Odur ki, Rusiya Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir. Bakı-Moskva oxu üzrə anlaşma tək Azərbaycan-Rusiya anlaşması deyil, bunun əsasında bütün regionda və Avrasiyada təhlükəsizliyə təsir göstərəcək bir amil kimi qəbul olunur.

Bu Bəyannamə ilə hər iki ölkə arasında yaranmış uzunmüddətli boşluqlar doldurulacaqdır. Moskva Bəyannaməsi postmüharibə dövründən yığılıb qalmış problemlərin həllini də tezləşdirəcəkdir.

Bu müqavilə Azərbaycanı daha da gücləndirir. Türkiyə və Rusiya ilə müttəfiq olmaq, yaxın zamanlarda Avropa İttifaqı ilə ikitərəfli sazişin imzalanması perspektivi güc, bacarıq, məharətli diplomatiya tələb edir.

Moskva Bəyannaməsi Ermənistanı arxa plana keçirmişdir. Onun son ümidləri qırıldı. Son günlərdə Ermənistanda baş verən qarşıdurmalar bunu bir daha sübut edir. Artıq Ermənistan müttəfiqlik əlaqələri, üçüncü tərəfin mübahisələrə cəlb edilməsi kimi məsələlərdən sui-istifadə edə bilməyəcəkdir.

Bəzi maraqlı şəxslərin, siyasi qrupların bu müqavilənin mahiyyətini təhrif etməsi, onun Azərbaycanın müstəqilliyini məhdudlaşdıran, təhlükəsizliyinə xələl gətirən addım olması ilə bağlı iddiaları tam yanlışdır. Bu kimi iddialar sənədin mahiyyətini dərk etməmək və yaxud qərəzli şəkildə onun haqqında yanlış rəy formalaşdırmaq cəhdinin nəticəsidir.

**Abil AĞASƏFOV,**
**YAP Qəbələ Rayon Təşkilatının sədri.**